THE MINISTRY OF YOUTH AND SPORT
OF THE REPUBLIC OF AZERBAIJAN

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

DDCP-YD/ETD (2017) 65 — Strasbourg, 16 March 2017

# KOMPAS
# Azərbaycandan olan gənc multiplayerlər və təlimçilər üçün insan hüquqları təhsili və demokratik vətəndaşlıq mövzusunda uzunmüddətli təlim kursu

Bakı – Strasbourg, May 2017 – Aprel 2018

## Təlim kursunun təsviri

## İştirak üçün elan

Birinci rezidensial seminar: 26 iyun - 4 iyul 2017-ci il
(Gəlmə və getmə tarixləri də daxil olmaqla)

## AVROPA ŞURASI VƏ İNSAN HÜQUQLARI TƏHSİLİ

Avropa Şurasının, qitənin aparıcı insan hüquqları təşkilatının əsası 5 may 1949-cu il tarixində qoyulmuşdur. Şurada 47 üzv ölkə var. Üzv ölkələr İnsan Hüquqları üzrə Avropa Konvensiyasını – təşkilatın əsas dəyərləri olan insan hüquqları və qanunun idarəsini müdafiə etmək üçün hazırlanmış razılaşmanı – imzalayıblar. 25 yanvar 2001-ci il tarixində Azərbaycan Avropa Şurasının 43-cü üzv ölkəsinə çevrildi.

Avropa Şurasının Gənclər Departamentinin insan hüquqlarının təhsilinə yönəlmiş layihəsi Avropa Şurasının əsas missiyası olan insan hüquqlarının təbliği və müdafiəsinə birbaşa töhvədir. Adətən "İnsan Hüquqları Təhsili üzrə Gənclər Proqramı" kimi tanınan bu layihənin əsas hədəflərindən biri Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili üzrə Avropa Şurası Xartiyasının icrasında gənclər sahəsində çalışan qeyri-hökumət təşkilatlarının rolunu dəstəkləmək və möhkəmlətməkdir. Buna nail olmaq üsulu kimi insan hüquqları təhsili üzrə vasitə və resursların hazırlanması və yayılması ilə təlimçilər, multiplayerlər və insan hüquqları təhsili üzrə vəkillər üçün bacarıq-artırma tədbirlərinin birləşdirilməsindən istifadə olunur.

İnsan hüquqları təhsili – insan ləyaqətinin bərabərliyin təbliğinə yönələn tədris proqramları və tədbirləri – bütün avropalılar üçün vacib olan vətəndaşlıq anlayışının, həmçinin hər kəsi eyni ləyaqətə malik olaraq dəyərləndirən qlobal anlayışın formalaşdırılması üçün böyük dəyər və əhəmiyyət kəsb edir. İnsan hüquqları təhsili o cümlədən pozuntuların qarşısını almaq və insan ləyaqətinə əsaslanan mədəniyyətin formalaşdırılması üçün effektiv bir vasitədir.

Gənclər sahəsində qeyri-formal təhsil ilə məşğul olan şəxslər həmçinin insan hüquqlarının təkamülünü, təcrübəsini və çətinlikərini, onların universallığını, bölünməzliyini və ayrılmazlığını və onların indiki dövrün gənclərin üçün nə məna verdiyini nəzərə almalıdırlar. İnsan hüquqları təhsili hüquqlar və vəzifələr haqqında öyrənməkdən daha artıq bir şeydir. Bu tədrisin necə formalaşdırılması və məqsədi haqqındadır: insan hüquqları üçün öyrənmək insan hüquqları vasitəsilə və insan hüquqlarında öyrənməklə eyni dərəcədə əhəmiyyətlidir. Bu insan hüquqları təhsilinin həm formal, həm qeyri-formal məzmunları üçün eyni dərəcədə doğrudur.

## MƏNBƏ MƏLUMATI

Avropa Şurasının 2014-2016-cı illər üçün Azərbaycan üzrə Fəaliyyət Planı Azərbaycan hökuməti və Avropa Şurası arasında ortaq bir təşəbbüs olub, Azərbaycanın Avropa Şurası üzv ölkəsi olaraq status və xüsusi öhdəlikləri yerinə yetirməsinə dəstək və bəzi fundamental insan hüquqlarının və qanunun idarəsi məsələlərini ünvanlamağa kömək məqsədi daşıyır. Bura daxil olan hissələrdən biri insan hüquqları təhsilinə və gənclərin demokratik iştirakına həsr olunub. Gənclər sahəsində iş və gənclər təşkilatları vasitəsilə insan hüquqları təhsili və gənclərin demokratik iştirakı üzrə Azərbaycan dilində tədris resurslarının təminatına və təlimlərə xüsusi diqqət ayrılır.

"Compass" və "Have Your Say" dərsliklərinin Azərbaycan dilinə tərcüməsi və yararlılığı bu layihədə əsas rol oynayır: bu gənclər sahəsi üzrə işdə insan hüquqlarına əsaslanan yanaşma vasitəsilə Azərbaycanda gənclər təşkilatlarını və gənclər üzrə işi möhkəmləndirməyə qadir olan daha çox səriştəli və təcrübəli gənc liderlərin, təlimçilərin və multiplayerlərin cəlb edilməsini təmin edə bilər.

Layihənin əsas fəaliyyəti insan hüquqları təhsili və demokratik vətəndaşlıq üzrə "KOMPAS" uzunmüddətli təlim kursu olacaq. İştirakçıların bacarıqlarını artırmaqla bərabər bu həmçinin layihənin digər tərkib hissələri üçün də katalizator rolunu oynayacaq.

Təlim kursu Avropa Şurası Gənclər Departamentinin prioritetləri və prinsiplərinə (insan hüquqları təhsili, gənclərin iştirakı, gənclər sahəsi üzrə iş və qeyri-formal təhsil) və yuxarıda qeyd olunan Avropa Şurasının Azərbaycan üzrə Fəaliyyət Planının əsas sahələrinə cavab verir.

Təlim kursu Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Avropa Şurası Gənclər Departamenti tərəfindən birgə təşkil olunur.

## TƏLİM KURSU

KOMPAS insan hüquqları təhsili və demokratik vətəndaşlıq üzrə uzunmüddətli təlim kursu (UMTK) iştirakçıların fərdi inkişafı və praktiki təcrübələri üçün müxtəlif forma və işləmə metodlarından ibarət olan ətraflı və kompleks bacarıq artırma fəaliyyətidir. Bura daxildir:

- ***Azərbaycanda birinci təlim seminarı: 27 iyun - 3 iyul***. Kursun əsas hissələrindən biri olub iştirakçılara təlim prosesini mənimsəməyə və inkişaf elətdirməyə, tədris və inkişaf üçün məqsədləri təyin etməyə, kursun institusional və tədris çərçivələrini mənimsəməyə və kurrikulumun əsas elementləri üzrə bacarıqlarını artırmağa kpmək edir. Bu seminar çərçivəsində layihə ideyalarına baxılacaq, qiymətləndiriləcək və hazırlanacaq. Tədris məqsədləri təlimçilər, mentorlar və təşkilatçılar ilə birlikdə təyin ediləcək;
- ***E-tədris (onlayn-tədris) mərhələsi: iyun 2017 – fevral 2018***;
- ***Layihə planlaması və icrası: 2017-ci ilin iyunundan 2018-ci ilin fevralına kimi***. İştirakçılar insan hüquqları təhsili üzrə tədris layihələrini və tədbirlərini icra edəcəklər;
- ***Özünü qiymətləndirmə və fərdi inkişaf planları: iyun 2017 – mart 2018.*** E-tədris modulları, mentorluq və yoldaş-dəstək qrupları iştirakçıların sonrakı tədrisini və layihələrin formalaşdırılmasını dəstəkləyəcək;
- ***Strasburqda keçiriləcək ikinci təlim seminarı: 2018-ci ilin mart ayının sonu – aprel ayının əvvəli.*** Bu hissə iştirakçıların öyrəndiklərinin və onların tədris layihələrinin təsirinin qiymətləndirilməsinə həsr olunacaq. Seminarda həmçinin iştirakçıların bacarıqlarının artırılmasının möhkəmləndirilməsinə yönələn təlim elementləri də yer alacaq.

## KOMPAS UMTK-NIN MƏQSƏD VƏ HƏDƏFLƏRİ

KOMPAS təlim kursu yerli, regional və milli səviyyədə tədris layihə və tədbirlərinin icrası üçün gənclər vasitəsilə insan hüquqları təhsilinin və gənclər sahəsi üzrə işləyənlərin, liderlərin və təlimçilərin qabiliyyətlərinin (bilik, bacarıq, davranış) artırılması vasitəsilə qeyri-formal təhsilin keyfiyyətini artıracaq

**KOMPAS UMTK-nın əsas məqsədləri:**

- Compas yanaşmasına əsaslanaraq gənclərin yerli və milli səviyyədə insan hüquqları təhsili üzrə multiplayer və təlimçi bacarıqlarını artırmaq;

- İştirakçıların, gənclərlə insan hüquqları təhsili üzrə layihələr planlamaq və icra etməsinə dəstək olmaq;
- Azərbaycandakı gənclər təşkilatları tərəfindən keçiriləcək qeyri-formal təhsil və insan hüquqları təhsili üzrə fəaliyyətlərin keyfiyyətinin artırılmasına töhvə vermək.

**KOMPAS UMTK-dan gözlənilən nəticələr:**

- ✓ 30 gənc aktivist (fəal)/lider/işçi insan hüquqları təhsili üzrə təlim alaraq elə bir səviyyəyə çatırlar ki, Azərbaycanda gənclər layihələrində təlimçi olaraq fəaliyyət göstərmək bacarığı və Avropa Şurası Gənclər Departamentinin təlimçilər siyahısına əlavə edilmək imkanı əldə edir;
- ✓ Qeyri-formal təhsil yanaşmasına əsaslanan insan hüquqları və demokratik vətəndaşlıq təhsili üzrə gənclərin layihələrinin regional və yerli səviyyədə keçirilməsi və Azərbaycanda ən azı 300 nəfər gənci əhatə eləməsi;
- ✓ İnsan hüquqları təhsili və gənclərin iştirakı üzrə (Azərbaycandakı) fəallar və icraçılar Azərbaycan dilində olan tədris resursları vasitəsilə dəstəklənir;
- ✓ "Kompas"-ın 2012-ci il versiyası Azərbaycan dilinə tərcümə olunur və UMTK-nın iştirakçıları tərəfindən layihələrində istifadə olunur;
- ✓ Ən azı 20 nəfər insan hüquqları təhsili üzrə ixtisaslaşmış gənc təlimçi / multiplayerlərdən ibarət qeyri-formal şəbəkənin formalaşdırılması və Azərbaycandakı gənclər siyasətində aparıcı rol oynayan müəssisələr tərəfindən dəstəklənməsi;
- ✓ Azərbaycandakı gənclər ilə iş və qeyri-formal təhsil fəaliyyətlərində insan hüquqları təhsili üzrə keyfiyyət standartları və metodologiyaların hazırlanması və təbliği;
- ✓ İnsan hüquqları və demokratik vətəndaşlıq üzrə təhsilin Azərbaycandakı gənclər siyasəti və gənclər işi üçün vacib və uyğun yanaşma kimi qəbul olunması.

## PROQRAM VƏ METODOLOGİYA

Kurs iştirakçılara təcrübi tədris yanaşmalarına əsaslanan və insan hüquqları təhsili üçün böyük əhəmiyyət kəsb edən fəaliyyətlər və konseptlər barədə düşünmək və onları təcrübədən keçirmək imkanı verəcək. Kurs həmçinin ortaq tədris imkanı yaradaraq Azərbaycanın müxtəlif hissələrindən gələn iştirakçılara təlim və insan hüquqları təhsilinə öz yanaşmaları dialoqa əsaslanaraq müqayisə etmək imkanı da yaradacaq.

Bütün kurs boyunca iştirakçılar Avropa Şurası tərəfindən tədris və institusional dəstək alacaqlar.

## TƏDRİS LAYİHƏLƏRİNİN PLANLAŞDIRILMASI VƏ İCRASI

Uzun müddətli təlim kursunun komponentlərindən biri əldə olunmuş biliklərin, insan hüquqları təhsili üzrə təlim layihəsi və ya tədris tədbiri vasitəsilə praktiki tətbiqidir. Hər bir iştirakçı iyun 2017 – mart 2018 aralığında belə bir layihə planlamalı, icra etməli və qiymətləndirməlidir.

Bu layihələrin iştirakçıları göndərən təşkilatlar çərçivəsində hazırlanması və icra edilməsi nəzərdə tutulur.

### Layihələr üzrə kriteriyalar və tələblər

Bütün layihələr aşağıda göstərilən şərtlərə uyğun gəlməlidir:

1. Kurs çərçivəsində başlanılmalı və 15 mart 2018-ci il tarixinədək tamamlanmalıdır
2. Azərbaycandakı gənclərə insan hüquqları və vətəndaşlıq təhsilini təqdim və təbliğ etmək hədəfinə malik olmalıdır
3. Qeyri-formal təhsil yanaşma və dəyərlərinə əsaslanmalıdır
4. Azərbaycandakı gənclər üçün hazırlanmalı və ölkədəki gənclər işi və gənclər siyasəti məzmununu əks etdirməlidir
5. Gənclərin iştirakı yanaşmalarını dəstəkləməlidir
6. Kompas-ın Azərbaycan dilli versiyasından istifadə etməlidir
7. Ən azı 25 təlim saatını əhatə etməlidir
8. UMTK-da iştirak edən şəxs tərəfindən başlanılması və idarə edilməlidir. Həmin şəxs həmçinin təlimçi rolunda da çıxış etməlidir.
9. UMTK-nın digər təlimçiləri və iştirakçıları tərəfindən ediləcək şərhlərə və töhvələrə açıq olmalıdır
10. Avropa Şurasının qeyri-formal təhsil tədbirləri üzrə keyfiyyət kriteriyasına uyğun gəlməlidir
11. Sənədləşdirilməli və nəticələri ictimaiyyətlə bölüşülməlidir

Avropa Şurası və Azərbaycandakı tərəfdaşları mentorluq, yoldaş dəstəyi, layihə səfərləri və təbliğat da daxil olmaqla iştirakçılara və onların layihələrinə tədris və institusional dəstək göstərəcəklər.

## İŞTİRAKÇILARIN PROFİLİ

Təlim kursu 30-a yaxın iştirakçını bir araya gətirəcək: gələcəkdə təlimçi olmaq potensialı olan gənc liderlər, gənclər sahəsi üzrə işçilər, gənc fəallar və insan hüquqları təhsili üzrə multiplayerlər.

***Bütün maraqlanan şəxslər aşağıda qeyd olunan tələb və kriteriyalara uyğun gəlməlidirlər:***

- Gənclər təşkilatları və ya layihə qruplarında gənclərlə iş təcrübəsi olmalıdır;

- Azərbaycanda gənclər siyasəti və gənclər işi sahəsində insan hüquqları təhsilində öz bacarıqlarını artırmağa motivasiyalı olmalıdır;

- Təlim kursunun nəticələrinin davamı olaraq insan hüquqları təhsili üzrə multiplayer və təlimçi kimi fəaliyyət göstərmək istəyi və imkanına malik olmalıdır;

- İnsan hüquqları təhsili və/və ya gənclərlə iş üzrə layihə təşəbbüslərinin icrasında maraqlı və bacarıqlı olmaq;

- Təşkilat / müəssisə tərəfindən dəstəklənməli və göndərən təşkilat / müəssisə / qeyri-formal qrup tərəfindən tövsiyyə məktubu təqdim etməlidirlər;

- Birinci təlim seminarında, e-tədris və təcrübə fazalarında və ikinci təlim seminarında iştirak edə bilməlidir;

- Azərbaycan dilində sərbəst işləmə bacarığına malik olmalıdır, ingilis dili biliklərinin olması da tövsiyyə olunur;

- Azərbaycan Respublikasının sakini olmalıdır;

- 18-29 yaşı olmalıdır (istisnalar mümkündür).

## SEÇİM PROSEDURU

Təlim kursunda iştirak üçün həm-təşkilatçılar tərəfindən maksimum 30 nəfər seçiləcək.

Seçim edilərkən gender və coğrafi müxtəliflik, həmçinin gənclərlə iş üzrə fərqli təcrübələr nəzərə alınacaqdır.

Bütün maraqlanan şəxslər **4 iyun 2017-ci il**, 12.00-a qədər (Bakı vaxtə ilə) **http://youthapplications.coe.int** ünvanında onlayn ərizə formasını doldurmalı və təşkilat/müəssisə tərəfindən dəstək məktubunu təqdim etməlidirlər.

Bütün müraciət edənlər 12 iyun 2017-ci il tarixinədək seçim prosesinin nəticələri barədə məlumatlandırılacaqlar.

## MƏLUMAT

*Tarixlər*

Birinci rezidensial seminar Bakıda, 27 iyun – 3 iyul 2017-ci il tarixlərində keçiriləcək (dəqiq məkan haqqında məlumat daha sonra veriləcək).

Təşkilatçılar səfərlərini elə təşkil etməlidirlər seminar məkanına 26 iyun 17.00-dan öncə gəlsinlər, 4 iyul səhər isə tərk etsinlər.

*Səfər*

İştirakçıların səfər xərcləri birinci rezidensial seminarın sonunda biletlərin və ya digər rəsmi sənədin təqdim edilməsindən sonra Azərbaycanlı təşkilatçılar tərəfindən qarşılanacaq.

*İşçi dillər*

Təlim seminarı əsasən ingilis dilində keçiriləcək, Azərbaycan dilinə tərcümə olacaq.

*Tədbir məkanı*

Birinci seminarın keçirilmə məkanı daha sonra elan ediləcək. İştirakçıların yemək və yaşayış xərcləri Azərbaycan respublikası Gənclər və İdman Nazirliyi tərəfindən ödəniləcək.

## ƏLAVƏ

Əlavə məlumat üçün aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

- Marina Filaretova, Avropa Şurası Gənclər Departamentinin nümayəndəsi, **marina.filaretova@coe.int**;
- Azər Abasəliyev, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əlaqələndiricisi, **azerabasaliyev@gmail.com**